# BİTKİLƏRƏ QULLUQ

Aqrar elmlər üzrə fəlsəfə doktoru İsmayıl Qəzənfər oğlu Məcidli bu dəfə oxucuların görüşünə bir təbib-loğman kimi gəlib. "Meyvə və giləmeyvəli bitkilərin xəstəlikləri atlası" ("Universal Nəşriyyat və Çap Evi", 2019) adlı kitabın adından da görünür ki, müəllif bitkilər üzərində tədqiqat aparıb və onun "həkimliyi" də məhz bitkilərin üzərindədir. Buna görə də təsadüfi deyildir ki, ön sözdə özü də qeyd edib ki, "Kitabda bölgələrimizdə becərilən meyvə və giləmeyvəli bitkilərdə ən çox təsadüf edilən xəstəliklərdən, onların təzahür əlamətlərindən, rəngli təsvirindən (xəstə bitkinin, onun ayrı-ayrı hissələrinin, xəstəlik törədicisinin müxtəlif inkişaf mərhələlərində görünüşü) və gedişatından bəhs edilməklə yanaşı, onlarla mübarizə tədbirləri də geniş əks etdirilmişdir" (səh. 12).




Göründüyü kimi, İsmayıl müəllim bu araşdırmasını bitkilər aləminə həsr edib və meyvə və giləmeyvəli bitkilərdəki xəstəliklərin təzahür əlamətləri burada əyani olaraq rəngli şəkillərin təsviri vasitəsilə açılıb göstərilir. Eyni zamanda təqdirəlayiq hal odur ki, sadəcə tabın 6-cı hissəsində öz əksini tapmışdır. Bir məsələni də diqqətə çəkim ki, yekundakı 7 və 8-ci hissələrdə "Xəstəliklərin Azərbaycan dilində adlarının əlifba sırası" və "Xəstəlik törədicilərinin latınca adlarının əlifba sırası" formasında təqdimi də oxucular üçün maraqlandığı xəstəliyin kitabdan axtarılıb tapılmasında mühüm köməkdir.

Kitabın ən əhəmiyyətli və əsas hissəsi "Xəstəliklərin atlası" olan sonuncu 10-cu bölməsidir. Burada meyvə və giləmeyvəli bitkilərdə rast gəlinən 100-dən çox xəstəliyin, bitkinin bütün orqanlarında (yarpağında, çiçəyində, meyvəsində, zoğunda, gövdəsində və kökündə) törətdiyi təzahür əlamətləri rəngli olaraq öz təsvirini tapmışdır ki, bunun da həmin xəstəliklərın tanınması və diaqnostikasında əhəmiyyəti böyükdür. Çünki xəstəliklərin düzgün müəyyən edilməsi ona qarşı aparılan mübarizənin effektiv olmasında önəmli yer tutur. Kitabın daha bir özəlliyi də onun yüksək elmi tutumlu olması ilə yanaşı, anlaşıqlı və

xəstəliyin əlamətləri və təzahür tipləri ilə kifayətlənməyən tədqiqatçı həm də bir təbib-loğman (fitopatoloq) kimi xəstəliklərin müalicə yollarını da izah edir. Bu da əsərin mükəmməlliyini artıran mühüm amildir.

Kitabın fundamentallığını əsaslandıran cəhətlərdən biri də və həm də ən başlıcası ondan ibarətdir ki, İsmayıl müəllim problemə sistemli şəkildə yanaşıb. Belə ki, 10 hissədə apardığı tədqiqatlarını ayrı-ayrı hissələrə müqabil olaraq da bölmələrə-paraqraflara, yarımbaşlıqlara bölüb, məsələni incəliyinədək araşdırıb. Misal üçün, "Göbələk xəstəlikləri" adlı ilk hissəni yeddi yarımbölmədə araşdırıb: " Tumlu meyvə bitkilərinin xəstəlikləri", "Çəyirdəkli meyvə bitkilərinin xəstəlikləri", "Subtropik bitkilərin xəstəlikləri", "Sitrus bitkilərin xəstəlikləri", "Qərzəkli meyvə bitkilərinin xəstəlikləri", "Giləmeyvəli bitkilərin xəstəlikləri", "Meyvə bitkilərində oduncağın çürüməsini törədən göbələklər". Eyni zamanda bu bölmənin də hərəsini ayrı-ayrı yarımbaşlıqlar adı altında tədqiqata çəkən İsmayıl Məcidli bununla da sanki zərrəbinlə gəldiyi qənaət və nəticələri oxuculara və tədqiqatçılara aşılaya bilmişdir. Kitabın "Bakterial xəstəliklər" adlı 2-ci hissəsində meyvə və giləmeyvəli bitkilərdə təsadüf edilən bakterial xəstəliklərdən, onların təzahür əlamətlərindən və onlara qarşı aparılan mübarizə tədbirlərindən ətraflı məlumat verilmişdir.

Beləliklə, müəllif kitabın 3-cü hissəsini "Meyvə bitkilərinin virus və mikoplazma xəstəlikləri"nə, 4-cü hissəsini "Çiçəkli bitkilərin yarımparazit və parazitləri"nə, 5-ci hissəsini "Meyvə və giləmeyvəlilərin yoluxmayan xəstəlikləri"nə həsr etmişdir. Onu da qeyd etmək yerinə düşərdi ki, 5-ci hissə də öz növbəsində "Meyvə və giləmeyvəlilərin qida pozğunluqları", "Şaxtaların və günəşin törətdiyi zədələnmələr" və "Meyvə və giləmeyvəlilərin aydınlaşdırılmamış səbəblərdən baş verən xəstəlikləri" adlı hissələrə bölünmüşdür.

Meyvə və giləmeyvəli bitkilərin xəstəlikləri ilə mübarizədə ən çox istifadə edilən "Əsas fungisidlər, onların hazırlanması və tətbiqi qaydaları" kisəlis dildə yazılması və asan başa düşülməsidir.

Respublikamızın ümumi daxili məhsulunun 70 %-dən çoxunun qeyri-neft sektorunun payına düşdüyü müasir dövrümüzdə, xüsusən kənd təsərrüfatının sürətli inkişaf etdirilməsi, ölkə əhalisinin ərzaq məhsullarına tələbatının yerli istehsal hesabına ödənilməsi ilə bərabər ixrac potensialının artırılması günümüzün aktual problemlərindən biridir. Ölkə əhalisinin vitaminlərə, mikroelementlərə ehtiyacının ödənilməsində əsas yerlərdən birini tutan meyvəçilik bu problemin həllində mühüm rol oynamaqla aqrar sahənin aparıcı sahələrindəndir. Beynəlxalq səhiyyə təşkilatının və FAO-nun normativlərinə görə, hər bir insanın il ərzində 76 kq meyvə qəbul etməlidir.

Bunun müqabilində respublikada adambaşına meyvə istehlakının 40 kq olması meyvəçiliyin inkişafının elmi əsaslar üzərində inkişaf etdirilməsini zəruri edir. Hər il böyük zəhmət hesabına yetişdirilən məhsulun çox hissəsinin xəstəlik və zərərvericilər tərəfindən məhv edilməsi bitki mühafizəsi probleminə xüsusi elmi yanaşma tələb edir. İ.Q.Məcidlinin "Meyvə və giləmeyvəli bitkilərin xəstəlikləri atlası" kitabı məhz bu problemin elmi yolla həll edilməsinə xidmət edir.

Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafı ilə bağlı ölkə Prezidentinin çoxsaylı Sərəncamlarını, bu sahədə son illərdə qəbul edilmiş dövlət proqramlarını əldə rəhbər tutaraq, meyvə və giləmeyvə bitkilərinin xəstəlik və zərərvericilərdən elmi əsaslı mühafizəsi ilə onların potensial məhsuldarlığının əldə edilməsinin ölkəmizdə kənd təsərrüfatı istehsalının gücləndirilməsində, əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsində strateji və həlledici rol oynadığını nəzərə alaraq, İsmayıl Məcidlinin bitkilərin xəstəliklərinin qarşısının alınmasına doğru yönəlmiş bu əsəri mahiyyətcə elə insanların özünə-yaşayışı üçün zəruri olan qida məhsullarına tələbatının yetərincə ödənilməsinə hesablanmış bir tədqiqatdır.

***Şakir Əlifoğlu***
*filologiya üzrə fəlsəfə doktoru, dosent.*